# AZƏRBAYCAN MƏTBUATI: dünənimizdən bu günümüzə baxış

Ölkəmiz müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, mətbuatın inkişafı üçün də lazımi tədbirlər görüldü. Bu gün əminliklə deyə bilərik ki, ölkə mətbuatı müasir dövrün bütün tələblərinə cavab verməklə yanaşı, xalqımızın milli kimliyinin formalaşmasında, tarixiliyimizin qorunub saxlanılmasında müstəsna xidmətlər göstərir. 143 illik tarixə malik olan mətbuatımızın keçdiyi tarixi inkişaf yolu zaman keçdikcə daha da dərinləşir, dövlətimizə xidmətləri daha da artır




**Olduqca qədim tarixi inkişaf yoluna malik olan mətbuatımızın bu günündən bəhs edərkən, onun keçdiyi həmin tarixə nəzər salmaq da zəruridir. Müəyyən məhdudiyyətlər baxımından həmin tarixə geniş baxmaq mümkün olmasa da çalışacağam ki, bu yazıda mətbuat tariximizin haradan başladığına dair bir neçə önəmli faktı bölüşə bilim.**

Artıq uşaqdan-böyüyə hər kəsə məlumdur ki, Azərbaycan mətbuatı ilə Həsən bəy Zərdabi adı bərabər işlənir. O dövrdə millətin maariflənməsi naminə fədakarlıq göstərən ediblərin bu sahədə apardıqları mübarizənin nəticəsi olaraq 1875-ci il iyulun 22-də məhz görkəmli edib və ziyalı Həsən bəy Zərdabinin təsisçiliyi və baş redaktorluğu ilə Azərbaycanın ilk mətbuat orqanı - "Əkinçi" qəzeti işıq üzü gördü. Bununla da Azərbaycan mətbuatının əsası qoyuldu.

Həsən bəy Zərdabi ətrafına yığdığı ziyalılarla bir yerdə cəmiyyət arasında elmi, təhsili, savadlılığı təbliğ edirdi. Təbii ki, o dövrdə buna qarşı çıxan qüvvələr var idi. Məhz bu baxımdan "Əkinçi" fəaliyyəti boyunca xeyli sayda təzyiqlərə məruz qalmışdı. Bu təzyiqlərin şiddətlənməsi nəticəsində Həsən bəy Zərdabi 1877-ci ildə "Əkinçi"nin nəşrini dayandırmalı oldu. Sonralar görkəmli ziyalımız 1905-ci ildə "Rusiyada əvvəlinci türk qəzeti" adlı məqaləsində "Əkinçi"ni hansı məqsədlər naminə nəşr etdirdiyini, qarşıya çıxan çətinlikləri, çar senzurasının təqiblərini açıb göstərmişdir. "Əkinçi"nin ardıcıllarıda eyni aqibətə məruz qalsalar da fəaliyyət göstərdikləri az müddətdə sözlərini felyetonlar, karikaturalar, satira və yumorlar vasitəsilə xalqa çatdıra bilmişlər.

"Əkinçi" özündən sonra böyük bir məktəb formalaşdırdı. Mətbuatımızın ilk qaranquşunun ənənələrini davam etdirən xeyli sayda qəzetlər fəaliyyət göstərsə də, onlar da zaman-zaman müəyyən tənqidlərə, təhqirlərə məruz qaldılar. Söz, fikir azadlığı hər addımda boğulur, jurnalistlər fiziki və mənəvi təzyiqlərə məruz qalırdılar. XIX əsrdə başlayan mətbuat ənənələri XX əsrə qədər çətin mərhələdən keçdi. Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonrakı dövrdə isə Azərbaycan mətbuatının inkişafında tamamilə yeni mərhələ başlandı. Həmin dövrdən respublikada mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. "Jurnalist əməyi qeyri-adi əməkdir. Böyük səy, zəhmət, cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir" deyən ümummilli lider Heydər Əliyev müstəqil mətbuatın inkişafını demokratiyanın tələbi kimi dəyərləndirərək bu sahəyə diqqətini əsirgəmədi. "Mətbuat azadlığından, söz azadlığından sui-istifadə edib, xüsusən iqtidara qarşı cürbəcür böhtan, yalan yazanlar, uydurmalar yayanlar cinayət edirlər" söyləyən Ulu Öndər mətbuatda obyektivliyin, aşkarlığın qorunmasını milli jurnalistikanın başlıca vəzifəsi olduğunu diqqətə çatdırırdı. Belə ki, milli və bəşəri dəyərləri rəhbər tutan Azərbaycan mətbuatı demokratiya və aşkarlığın mühüm vasitəsi kimi xalqımıza öz ali məqsədlərini həyata keçirmək yolunda bələdçi olub, müstəsna xidmətlər göstərib.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Söz azadlığının geniş şəkildə təsbit edilməsi üçün 1998-ci ilin avqust ayının 6-da ulu öndərimiz Heydər Əliyevin imzaladığı "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı ilə mətbuatda dövlət sirlərini mühafizə edən Baş idarənin ləğvindən və "Kütləvi informasiya vasitələri haqqında" Qanunun qəbulundan sonra ölkə mətbuatının inkişafında yeni dövr başlanmışdır. Senzuranın ləğvi ilə mətbuata azadlıq verildi. Hazırda ölkəmizdə söz və mətbuat azadlığı sahəsində heç bir problem yoxdur. Müasir müstəqil mətbuatımızın inkişafı üçün yaradılan şərait demokratiyanın tələblərinə uyğun olmaqla mətbuatda tamam başqa obyektiv şərait formalaşdırıb. Müstəqil Azərbaycan dövləti ölkədə insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi önəm verir. Azərbaycanda azad sözün cəmiyyət həyatında üstün yer tutması, maneəsiz yayılması üçün zəruri addımlar atmışdır.

Ulu Öndərin Azərbaycan mətbuatına göstərdiyi xüsusi diqqət atılan hər bir addımda özünü göstərirdi. Təsadüfi deyil ki, Ümummilli Liderin hakimiyyəti dövründə qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları ləğv edildi, redaksiyaların maddi-texniki bazasının gücləndirildi, jurnalistlərin dövlətin ali mükafatları ilə, o cümlədən orden və medallarla təltif olundular. Təbii ki, bu siyasət ölkəmizin başçısı cənab İlham Əliyev tərəfindən davam etdirilir. Məhz bu diqqətin nəticəsində cənab Prezident dəfələrlə "Jurnalistlərin dostu" adına layiq görülmüşdür.

Azərbaycan Jurnalistlərinin I Qurultayında Mətbuat Şurasının yaradılması milli mətbuatımızda pərakəndəliyi aradan qaldırdı. Jurnalistlərin Peşə Kodeksinin qəbul edilməsi isə media qurumları arasında problemlərin həllində mühüm rol oynadı. Milli mətbuatımızın 130, 140 illik yubileylərinin keçirilməsi haqqında Azərbaycan Prezidentinin Sərəncamı bu sahəyə olan diqqət və qayğının bariz nümunəsi olmuşdur.

Təbii ki, öz növbəsində mətbuat-dövlət ənənələrinin tənzimlənməsi də hər bir dövlət üçün xüsusi əhəmiyyət kəsb edir. Bu vəziyyətin ciddiliyi nəzərə alınaraq "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" qəbul edildi. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF )yaradılması müstəqil mətbuatın formalaşmasında mütərəqqi addım olmuşdur.

KİVDF-nin yaradılmasının əsas məqsədi və fəlsəfəsi azad medianı inkişaf etdirmək, onu dəstəkləmək, mətbuatın maddi-texniki bazasını gücləndirmək, o cümlədən mediada çalışan jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət göstərməkdir.

Bu gün ölkəmizdə xeyli sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, onlayn media inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirmişdir. Şübhəsiz ki, bu gün dünyada gedən inkişaf Azərbaycan mətbuatından da yan keçmir. Bu gün yüzlərlə jurnalist beynəlxalq təşkilatların dəstəyi ilə təşkil olunan peşə artımı kurslarında treninq və təkmilləşmə kursları keçirlər. Peşəkar jurnalistlər ölkədə və onun xaricində baş verən ictimai, siyasi, mədəni hadisələri tam obyektiv işıqlandırır, onları təhlil edir və oxucuya qərəzsiz, düzgün çatdırırlar. Belə jurnalistlər ictimai-siyasi, iqtisadi, mədəni, elm və texnika sahələrindəki nöqsanları qərəzsiz mövqedən açır, göstərir və onların həlli istiqamətində araşdırmalar aparırlar.

Müasir mətbuatımıza verilən tələb budur ki, hər bir jurnalist müəllifi olduğu yazı üçün məsuliyyət daşımalıdır. Əsl mətbuat işçisi, qələminə hörmət edən jurnalist şəxsi qərəzliyə, ambisiyalara yol verməməlidir. Ümumxalq tribunası olan mətbuat müstəqil olmalı, səmərəli fəaliyyəti üçün yaradılmış demokratik şərait Azərbaycan yeni informasiya mühitinin formalaşmasına xidmət etməlidir. Prezident İlham Əliyev azad mətbuatın inkişafına yönəlmiş bu siyasətə sadiq olduğunu atdığı addımları ilə təsdiqlədi. İnsanların şəxsi həyatına müdaxilənin aradan qaldırılması, böhtan xarakterli yazıların qarşısının alınması üçün 2009-cu ildə keçirilən ümumxalq səsverməsi ilə Milli Konstitusiyaya olunan bəzi əlavə və dəyişikliklər mətbuat ilə ictimaiyyətin üzərinə düşən vəzifələri bir daha dəqiqləşdirdi. Ölkə başçısının şəxsi təşəbbüsü ilə kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələri üçün hərtərəfli şərait yaradıldı. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə başçısı dəfələrlə bəyan edib ki, söz və informasiya azadlığı hər bir ölkə üçün, dövlətin inkişafı üçün ən vacib məsələlərdəndir.

"Azərbaycanda söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması çox vacib məsələlər hesab olunur. Bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçib" deyən cənab İlham Əliyevin jurnalistlərə qayğısının ən bariz nümunəsi, dünya təcrübəsində alternativi olmayan peşəkar jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması və ictimai fikrə təsir edə biləcək media qurumlarına maliyyə yardımının verilməsidir. Bu layihələrin tətbiqi nəticəsində yüzlərlə jurnalist təmirli və yüksək keyfiyyətli mənzillə təmin edilib.

Bu gün Azərbaycan müharibə şəraitində yaşayan bir ölkədir. Müasir dövrün qanunları onu göstərir ki, indi müharibə səngərlərdə yox, beyinlərdə gedir. "İnformasiya əsrində yaşayırıq" fikri hər gün özünü sübut edir. 25 ildən artıq bir vaxtda müharibə şəraitində yaşayan bir ölkədə mətbuatın inkişafına dövlət tərəfindən göstərilən bu qayğı özlüyündə jurnalistikanın fəaliyyətinin önəmini də ortaya qoyur. Bu gün Azərbaycan jurnalistikasının qarşısında olduqca mühüm məqsədlər dayanır. Bütün hallarda ölkədə və ölkədən kənarda baş verən hadisələrə qarşı ən lazımi cavabı Azərbaycan mətbuatı, ölkə mediası verir. Məhz bunun sayəsində bu gün dövlətimiz tərəfindən Azərbaycanın inkişafı istiqamətində həyata keçirilən uğurlu siyasət təkcə ölkə də deyil, respublikamızın hüdudlarından kənarda da yüksək səviyyədə işıqlandırılır.

**Mənsumə Babayeva,**
***"İki sahil"***

**Yazı Azərbaycan Respublikasının Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**